# İstiqlal fədaisi Əhməd Cavad

**Safurə Quliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.

**Annotasiya.** Əhməd Cavad iyirminci yüzilliyin əvvəlində milli ictimai-siyasi motivli poeziyanın görkəmli nümayəndəsi olmuşdur. Məqalədə onun milli istiqlal ideyalı əsərləri təhlilə cəlb edilmişdir.

Belə nəticəyə gəlinir ki, şair Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, sovet hakimiyyəti illərində də həm lirik şeirlərində, həm də poemalarında simvolik üsullardan istifadə edərək öz azadlıq düşüncələrini qələmə almışdır.

Əhməd Cavad milli müstəqillik amalından dönmədiyinə görə, 1937-ci il repressiyasında istiqlal fədaisi kimi qətlə yetirilmişdir.

**Açar sözlər:** Əhməd Cavad, milli müstəqillik, lirik şeirləri, poemaları, repressiya

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2022; qəbul edilib – 19.09.2022

# Devotee of Independence – Ahmad Javad

**Safura Guliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.

**Abstract.** Ahmad Javad is a prominent representative of the socio-political poetry of the early twentieth century. The article analyzes his works, which are dominated by the idea of national independence.

It is concluded that, using symbolic methods, the poet expressed his views on freedom both in lyrical verses and in poems created not only in the times of the Azerbaijan Democratic Republic, but also in the Soviet period.

Ahmad Javad was executed during the 1937 repression for not betraying his beliefs in national independence by sacrificing himself to the idea of sovereignty.

**Keywords:** Ahmad Javad, national independence, lyric poetry, poems, repression

**Article history:** received − 13.09.2022; accepted − 19.09.2022

## Giriş / *Introduction*

İyirminci yüzilliyin əvvəlində Azərbaycanda maarif və mədəniyyətin inkişafı sahəsində milli ziyalıların hərəkatı xeyli güclənmişdi. Onlar yeni tipli tədris müəssisələri yaradır, qəzet və jurnallar nəşr etdirir, yaradıcılıqlarının başlıca amalında xalq və vətən problemlərini ehtiva edirdilər. Belə bir dövrdə ilk şeirləri ilə mətbuatda görünən Əhməd Cavadın ədəbi-ictimai görüşlərinin formalaşmasında müəllimləri Hüseyn Cavidin, Abdulla Surun və İdris Axundzadənin böyük təsiri olmuşdu. Vətənin yüz ildən bəri rus imperializminin əsarətində miskin vəziyyətə düşməsi artıq ilk şeirlərinin ideya-estetik məramnaməsində inikas olunurdu. Dövrün M.Ə.Sa-

bir, C.Məmmədquluzadə, M.Hadi, H.Cavid kimi görkəmli sənətkarlarının milləti hərəkətə gətirmək, ictimai şüuru oyatmaq çağırışlarına 20 yaşlı Ə.Cavad da öz həyəcanlı səsini qoşurdu.

**Əsas hissə / *Main Part***

Azərbaycan Xeyriyyə Cəmiyyətinin fəalları sırasında Türkiyənin Qars, Ərdəhan, Batum vilayətlərinə səfərləri Ə.Cavadda türkçülük, turançılıq amalının sabitləşməsinə təkan vermişdi.

1917-ci ildə baş verən rus burjua və proletar inqilablarından sonra Azərbaycanın milli istiqlalı idealının tezliklə reallaşa biləcəyi ehtimalı şairin yaradıcılığına böyük ruh yüksəkliyi, nikbinlik gətirdi. Onun ictimai-siyasi hərəkatda yaxından iştirakı lirik tərənnümlərində siyasi məzmunu qüvvətləndirdi. Bu illərdə yazdığı "Mən kiməm?" şeiri şairin yaradıcılıq məramnaməsini ifadə edirdi. O, yazırdı:

*Mən çeynənən bir ölkənin*
*"Haqq" bağıran səsiyəm!* [1, s.138]

Əhməd Cavad şeirində "yoxsulların elinə olan haqsız axın"dan qəzəblənib, böyük duyğularla yaşayan vicdanları "yenilməz qala" olmağa çağırırdı. Birinci Dünya müharibəsinin, milli qırğınların nəticəsində xalqın əzab-əziyyətlərini qəlbən yaşayan şair bəzən hədsiz ümidsizliyə qapılırdı: "Ancaq dünya əskidi, haqq-ədalət nə gəzər", yaxud "Güc bir həyat mənbəyidir, hər bir güclü talançı".

Əhməd Cavad xalqın, vətənin həyatı ilə birgə nəfəs alan ilk realist şairimizdir ki, öz dövründə baş verən ictimai-siyasi hadisələr onun fərdi dünyası, şeirinin poetik strukturunda sənətkarlıqla təcəssüm olunmuşdur. Xüsusilə, Azərbaycana köməyə gəlmiş türk ordusuna həsr etdiyi şeirlərdə böyük ümidlərini, sevinc yaşantılarını ifadə edirdi. O, öz şair ömrünün ən bəxtəvər dövrünü Azərbaycan Demokratik Cümhuriyyətinin yarandığı günlərdə yaşadı. Bu münasibətlə yazdığı "Can, Azərbaycan" şeirində öz duyğularını "Torpağına can demişəm, Suyuna mərcan demişəm, Canımı qurban demişəm", – deyə böyük şadyanalıqla tərənnüm edirdi:

*Gəlib qızıl vaxtın sənin,*
*Açılıbdır baxtın sənin!*
*Gəncəm tacın, taxtın sənin!*
*Canım, gözüm, gözüm, canım,*
*Azərbaycanım.*
*Can, can,*
*Can Azərbaycan!* [1, s.216]

Bu şeir həm də milli poeziyamızda sonradan böyük bir dastana çevriləcək "Azərbaycan" poetik salnaməsinin ilk təməl daşlardan 1918-ci ilin mayında milli müstəqillik qazanmış Azərbaycan himnini də Əhməd Cavad yazdı və həmin himn bu gün də müstəqil dövlətçiliyimizin əsas atributudur. İllərdən bəri igid oğulların öz canlarını fəda etdikləri bu el səadətinə gedən yolun bütün ağrı-acılarını şair özü qəlbən yaşadığı üçündür ki, himnin hər misrasında "Səndən ötrü can verməyə cümlə hazırız, Sənə hər an can qurban" kimi vətənpərvər istiqlal aşiqinin amalı, sevgisi dil açırdı:

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə*
*Cümlə gənclər müştaqdır...* [1, s.213]

1920-ci il aprel çevrilişindən 2-3 il sonra çap etdirdiyi həsrət, intizar motivli məhəbbət şeirlərinin sətraltı məzmununu başa düşmək o qədər də çətin deyildi:

*Məni çox gənc ikən ağlatdı zaman*
*Çəkərək pərdə o xoş mənzərəyə.*
*Mənim ilk eşqimi ilk ildə həmən*
*Gömdülər, bilmədim amma nerəyə...*
*Yenə qəlbimdə o dərdin izi var...* [1, s.112]

Vətənin yenidən rus ordusu tərəfindən istilası onun şeirlərinə dərin bir kədər, bədbin ruh gətirdi. Bədii dilində ayrılıq, hicranlar, ələmlər, "qısıq bir səs", ümidsizlik, "Nədir günahımız, gözünə qaranlıq çökənlər" ("Nə yazım") kimi ifadələr yer alırdı. Bu dövrdə yazılan "Yoxsa" şeirində Əhməd Cavadın ictimai-siyasi dəyişikliklə bağlı lirik ovqatı daha səciyyəvi inikas edirdi:

*Göllərdəki ufaq dalğalar kimi,*
*Mən də böylə çapıb sönəcəkmiyəm?*
*Yeni çıxmış ikən ömür yoluna*
*Yoxsa yarı yoldan dönəcəkmiyəm?*
*Qarşımda açılmış dərin bir boşluq,*
*Uzanmış qalacaq qollarım bəlkə...*
*Mən kimə söyləyim, bu bitməz dərdi,*
*Bilməm ki, dinləyən, anlayan varmı?* [5]

1920-24-cü illərdə yazılmış bu qism şeirlərdəki lirik ovqat uzun illər ədəbi tənqiddə, ədəbiyyat tarixi kitablarında "xırda burjua əhvali-ruhiyyəsi", millətçilik, pantürkist meyillərin təzahürü kimi kəskin tənqid edilmişdir. Həmçinin bunları uğursuz məhəbbət şeirləri kimi də qələmə verirdilər. Nəhayət, 1990-cı ildən başlayaraq ölkədəki siyasi-ideoloji çevrilişdən – müstəqil Azərbaycan Respublikası qurulandan sonra şairin bu dövr poeziyasındakı pessimizmin həqiqi səbəblərini şərh edib obyektiv dəyərləndirmək mümkün oldu. Uğursuz məhəbbət şeirləri kimi araşdırılan bu gözəl örnəklərin ideya-məzmun və intonasiyasındakı bədbinliyi, ağlarlığı dərk etmək üçün onların ölkədəki fəci tarixi, ictimai-siyasi gedişatla bağlı yaranması faktına əsaslanmaq lazımdır, nəinki fərdi intim hisslərin ifadəsi kimi mənalandırmaq. Uzun illərdən bəri uğrunda xoş xəyallar bəslədiyi və çarpışdığı müqəddəs amala – Vətənin və millətin tam istiqlalına çathaçatda – azad, suveren bir dövlət yaradılmaqda ikən yenidən buxovlanıb "qorxunc uçurumlar qarşısında durmaq", "dərin bir boşluğa yuvarlanmaq" faciəsini yaşayan şairin 20-ci illərin əvvəlində yazdığı şeirlərdəki böyük kədərin dərin mənası aydın dərk olunur. İstiqlal şairinin bu qism şeirlərindəki ideya-məzmun tutumu, simvolizmə müraciəti səciyyə etibarilə 70 ildən bəri yanlış şərh olunsa da, sənətkarlıq nümunəsi olduğu üçün və özündə müqəddəs ideallara sədaqət kimi müsbət mənəvi-əxlaqi keyfiyyət yaşatdığına görə onlar proletar inqilabını və sovet hökumətini təsdiq və tərənnüm ruhlu şeirlərdən fərqli olaraq, milli tariximizin təlatümlü bir dövrünün bədii inikası kimi əbədi yaddaşa yazılmışdır.

İyirminci illərin sonu, otuzuncu illərin əvvəlində Əhməd Cavadın qələmə aldığı 3 poema: "Pambıq dastanı", "Kür", "Səsli qız" mərhələnin diqqətçəkən epik əsərlərindən olmuşdur. Zahirən şair hər üç poemada aktual mövzulara müraciət edib, dövlət tərəfindən tələb olunan ideya-məzmunu ehtiva etmişdir. "Pambıq dastanı"nda şair kollektivləşmə təsərrüfatının inkişafı üçün o dövrdə böyük əhəmiyyət verilən pambığı əsərinin qəhrəmanı seçmiş, onun doğulduğu məkan və zamandan başlayaraq dinamik bir xətlə inkişafını, yayılmasını və nəhayət, Azərbaycanda intişarını bədii lövhələrlə təcəssüm etmişdir. Lakin süjeti izləyərək pambığın şəninə yazılan tərənnümləri oxuduqca, ideya-məzmunun məğzindəki kəskin sarkazmı sezməmək mümkün deyil. Belə ki, bütün bunlar insanın deyil, adi bir kənd təsərrüfatı bitkisinin şərəfinə yönləndirilmişdir. Əsərin qəhrəmanı da insan deyil, məhz dövlətin istehsalına çox böyük əhəmiyyət verdiyi və bu işə hamını səfərbərliyə aldığı pambıq "həzrətləri"dir.

Əhməd Cavad mükəmməl savadı və geniş mütaliəsi olan bir şair idi. O, bədii yaradıcılığının ilk onilində həm romantik, həm də realist üslubda şeirlər yazmış, 1922-ci ildən ruhən ictimai-siyasi mühitin ideoloji təzyiqini qəbul etmədiyi üçün simvolizm cərəyanından yararlanmağa başlamışdı. İyirminci illərdə yazdığı bir sıra şeirlərində olduğu kimi, Ə.Cavad irihəcmli əsərlərini də bu metodun imkanlarından faydalanaraq yaratmışdır. "Pambıq dastanı"nın tərənnüm obyekti olan Pambıq dövlətin kənd təsərrüfatı planını simvolizə edirdi. Əsərin simvolik ideya-məzmununda şair iqtisadi plan və öhdəlikləri insan həyatından önəmli tutan dövlət siyasətinə qarşı etirazını böyük sənətkarlıqla ifadə edirdi.

Əhməd Cavad həm də simvolik üsuldan istifadə etdiyi "Kür" poemasında ölkənin ən böyük çayını əsərinin qəhrəmanı kimi təqdim edir. Onu qayğı ilə şəxsləndirib tarixin dolaylarından keçirərək, ətrafında yaşayan insanların başına gələn əhvalatları, yadellilərin hücumlarını, talanlarını xatırladır. "Əsərin mərkəzindən keçən lirik təhkiyə oxucunun xəyalına zaman və məkan baxımından vüsət verir və o, tarixin müxtəlif kəsiklərində Kür sahillərində dolaşan yunan, roma, ərəb, monqol, rus ordularını görmüş, onların Kürdən su içən atlarının kişnərtisini dinləmiş kimi olur" [4, s.410]. Müasir zamana keçidində şair lirik "mən"də döyüşkən ruhlu yeni sovet adamının tipik obrazını təqdim edir:

*Bu gün dünya qovuşmuş haqq bağıran*
*səsimdən,*
*Cahanın məzlumları feyz alır nəfəsimdən.*
*Möcüzələr yaradır alnımdakı qan-tərim,*
*Dünyanın hər yerində söylənməkdə hünərim...*
*Mən oldum ilkin quran dünyada düzgün əsas,*
*Mən yıxdım, mən devirdim, mən aldım gücdən*
*qisas* [1, s.240].

Bu hissədən sonra Kürün yeni insan tərəfindən "ram edilməsindən" söhbət açan lirik "mən" quruculuq dövrü üçün səciyyəvi olan poetik ovqatı amiranə ifadə edir: "İstəsəm, dırmaşarsan dağlara, Can verərsən bağlara, ...Güvənmə çox qoluna, Düş doğruca yoluna" və s. Poemanın sonu:

*Əyil, Kürüm, əyil, keç!*
*Meydan sənin deyil, keç!* [1, s.241]

misraları ilə bitir. Maraqlıdır ki, dövrün tənqidçiləri zahirən dövlət tədbirlərinə rəğbət yönümündə yazılmış poemanın ideya-məzmununu, mükəmməl süjet xəttini, yüksək poetik sənətkarlığını tamamilə kənara qoyur, bu iki misrada Kürün Azərbaycanı simvolizə etdiyini irad tutub, şairi sosialist quruluşunun qatı düşmənlərindən biri kimi günahlandırırdılar.

Ə.Cavadın "Səsli qız" poemasında məzmunun xalq rəvayətlərinə bənzər süjetlənməsinə baxmayaraq, zamanın ağrılı yaşantıları ilə səsləşən sətiraltı mənalar və simvolizə edilmiş əhvalatlar yetərincədir. Əsərdə xalqın işğalçılara qarşı müqaviməti aparıcı motiv kimi qabardılmışdır. Belə ki, qonşu ölkənin padşahı böyük bir qoşunla qəsbkarlıq məqsədini həyata keçirərək bütün mərd oğulları qılıncdan keçirtdirir, elin-obanın varını-sərvətini çapıb talayır, sağ qalan qoca, qadın, uşaqları öz qarşısında diz çökdürür. Və az sonra bu işğal gününü hamının bəzənib-düzənib şadyanalıqla kütləvi bayram etməsini əmr edir. Əlbəttə, heç bir xalq rəvayətində belə bir əhvalata rast gəlinmir. Şairin kəskin sarkazmında açıq-aydın sovet hökumətinin tərkibinə qatılan bütün respublikalarda böyük təmtəraqla keçirilən Oktyabr bayramını simvolizə etdiyi şübhəsiz idi.

Sarayda təşkil olunan bayram şənliyində gözəl müğənni Sara oxuya-oynaya şahın badəsinə zəhər töküb onu öldürərək, xalqı bu istilaya son qoymağa ruhlandırır. Əhməd Cavad bu sonluqla igid oğulların öldürülsə də, xalqın azadlıq əzminin tükənmədiyinə, qız-gəlinin belə, düşmənə qarşı ölüm-dirim mübarizəsinə qalxacağına və nəhayətdə qalib gələcəyinə inamını bildirirdi. Şair poemada yeni qurulan hökumətin milli müstəqilliyə qarşı apardığı sovetləşmə siyasətinin gec-tez məğlubiyyətə uğrayacağına əminliyini nağılvari əhvalatlarla simvolizə edirdi. Göründüyü kimi, böyük vətənpərvər şair yaradıcı şüura məcburən yeni ideologiya diqtə edildiyi ictimai-siyasi mühitdə hakim siyasətlə barışmazlığını simvolik vasitələrdən sənətkarlıqla yararlanaraq öz əqidəsinə sadiqliyini ədəbi yaddaşa həkk etmişdir.

Görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev yazırdı: "Əhməd Cavad türkün başında qatılaşan dini, milli, qövmi soyqırımına qarşı türk birliyi ideyasının beşiyi başında duranlardan biri olub. Elə bütün bunlara görə də onu hamıdan çox təqib ediblər, "xalq düşməni", "müsavat şairi" anlamına və obrazına tuşlanan bütün zərbələr ona dəyib" [5, s.367].

## Nəticə / *Conclusion*

Əhməd Cavadın 1937-ci ildə sovet dövləti tərəfindən "xalq düşməni" ittihamı ilə öldürülməsinin bircə səbəbi olmuşdur: Vətəninin müstəqillik amalı ilə alovlanıb yanan mübariz, qeyrətli şairi idi. Dövran onun olmasa da, əyilib keçmədi. Ölümü seçdi, Vətəninin qoynunda, xalqının qəlbində poeziyamızın "İstiqlal şairi" kimi əbədi məskən saldı.

**Ədəbiyyat / *References***

1. Cavad Əhməd. Əsərləri, 2 cilddə, I c. Bakı: Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya birliyi, 1992.
2. "İnqilab və mədəniyyət", 1930, № 5.
3. Qarayev Yaşar. Seçilmiş əsərləri, 5 cilddə, IV c. Bakı: Elm, 2016.
4. Nəbiyev Bəkir. Seçilmiş əsərləri. 5 cilddə, IV c. Bakı: Çinar-çap, 2009.
5. "Yeni yol", 1923, 12 may.

## Поборник независимости Ахмед Джавад

**Сафура Гулиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.

**Резюме.** Ахмед Джавад – видный представитель общественно-политической поэзии начала XX века. В статье анализируются его произведения, в которых доминирует идея национальной независимости. Делается вывод, что используя символические методы, поэт выражал свои взгляды о свободе как в лирических стихах, так и в поэмах, созданных не только во время Азербайджанской Демократической Республики, но и в советский период.
Ахмед Джавад был казнен во время репрессий 1937 года за то, что не предал свои убеждения о национальной независимости, принеся себя в жертву идее суверенитета.
**Ключевые слова:** Ахмед Джавад, национальная независимость, лирические стихи, поэмы, репрессия